





# "QARABAĞ AZƏRBAYCANDIR NİDASINDAN ŞUŞA İLİNƏ!" KİTABI QIRĞIZISTANDA NƏŞR OLUNUB

**Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarovun "Qarabağ Azərbaycandır nidasından Şuşa ilinə!" sərlövhəli elmi məqaləsi Bişkekdəki Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə paytaxtdakı "Uluu Toolor" nəşriyyatında Azərbaycan, rus, qırğız, türk və özbək dillərində kitab şəklində nəşr edilib.**

Nəfis şəkildə nəşr olunan kitabı qırğız dilinə akademik Osmonakun İbraimov, özbək dilinə Daşkənddə yaşayan şairə Gülzirə Şaripova, türk dilinə Yusif Aslan, rus dilinə Aynurə Əmiraslanova tərcümə ediblər.

Qədim Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalıb. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət abidələri erməni vandalizmi nəticəsində dağıdılıb. Kitabda bu faktlar tarixi sübut və dəlillərlə şərh olunur.

Müəllif yazır: "Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək tariximizə Zəfər Günü kimi həkk olundu".

2022-ci ilin ölkə başçısı tərəfindən "Şuşa ili" elan edilməsinə toxunan alim yazır: "Şuşa İli" Ali Baş Komandan İlham Əliyevin uzaqgörən müdrik siyasətinin, Azərbaycan Ordusunun rəşadətinin təntənəsi, əbədiyaşar şəhidlərimizin, qazilərimizin simasında müqəddəs ömür salnaməsi, şanlı tarixi hesabatıdır. Şuşa ili tarixi ata nəsihətinin reallaşması, günəş kimi təzahürü, ilhamnaməsidir. Şuşa ili təkcə ədəbiyyat, mədəniyyət, tarix, incəsənət ili olmayıb, qəhrəmanlıq, mərdlik, şücaət, əyilməzlik və ən ümdəsi daim haqq yolunda qılınc qaldıran əziz şəhidlərimizin, babalarımızın, analarımızın arzularının təcəssümüdür, sədasıdır"...

Kitabda qeyd edilir ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunan Şuşa şəhəri zəngin sənət və qəhrəmanlıq tarixinə malikdir. Keşməkeşli inkişaf yolu keçib, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb.

Xatırladaq ki, kitab bu fondun sifarişi ilə çap olunan 128-ci nəşrdir.

Toplunun digər nəşrlər kimi Orta Asiya ölkələrində yayılması nəzərdə tutulub.

**Vaqif TANRIVERDİYEV,**
**Gəncə.**